(Əvvəli 1-ci səhifədə).

# Milli Qurtuluş Günü qeyd edilib

ri seçilib və həmin tarix–15 iyun dövlətçilik tariximizə Milli Qurtuluş Günü kimi daxil olub.

Sonra rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovanın Milli Qurtuluş Gününə dair məruzəsi dinlənilib. RİH başçısının müavini Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında dönüş yaratdığını, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinin başlandığını bildirib. Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində ölkədə Milli Ordunun formalaşdırıldığını, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımların atıldığını qeyd edən natiq ölkənin siyasi, iqtisadi, ictimai və mədəni həyatının bütün sahələrində əsl quruculuq işlərinin başlandığını vurğulayıb.





Məruzədə diqqətə çatdırılıb ki, bu gün ulu öndərin siyasi irsi onun layiqli varisi, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülən işlərin nəticəsində müstəqil Azərbaycanın regionun sürətlə inkişaf edən lider dövlətinə çevrildiyi, ölkənin iqtisadi qüdrətinin durmadan artdığı, ictimai-siyasi sabitliyin, eyni zamanda beynəlxalq aləmdə mövqelərinin möhkəmləndiyi, xalqımızın sosial vəziyyətinin gündən-günə yaxşılaşdığı səslənib.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rodriqo Labardini Qəbələdə səfərdə olub

***Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Flores iyunun 14-də Qəbələ rayonunda səfərdə olub. Meksikalı diplomatı Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılayıb.***

Görüş zamanı RİH-nin başçısı Meksika və Azərbaycan arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinə dövlət başçılarının qarşılıqlı səfərlərinin müsbət təsir göstərdiyini, bu əlaqələrin hər iki xalqın yaxınlaşmasına, dövlətlərimiz arasında ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini bildirib.

Rayon icra hakimiyyətinin başçısı səfirə rayonun tarixi, iqtisadiyyatı, sosial və mədəni həyatı, turizm infrastrukturu, sənayesi və kənd təsərrüfatı haqqında geniş məlumat verib.

Ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində son illər rayonda bütün sahələrdə müsbət nəticələrin əldə olunduğu qeyd olunub.

Qəbələ rayonunda xüsusilə aqrar sektorun və turizm infrstrukturunun aparıcı sahələrdən biri hesab olunduğu diqqətə çatdırılıb.



Səfir Rodriqo Labardini ölkələrimiz arasında əməkdaşlığın potensialı, qarşılıqlı tanınma və yaxınlaşmaya xidmət edən mədəniyyətlər arasındakı oxşarlıqları qeyd edib.

Azərbaycanın bir çox bölgələrində olduğunu bildirən meksikalı diplomat Qəbələ rayonuna da dəfələrlə səfər etdiyini vurğulayaraq hər gəlişində burada gedən sürətli inkişaf prosesinin canlı şahidi olduğunu vurğulayıb.

Ölkələrimiz arasında turizm və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsi haqqında fikirlərini bölüşən səfir Azərbaycan xalqının öz qonaqpərvərliyi ilə bütün dünyada tanındığını qeyd edib.

Qarşılıqlı səmimiyyət şəraitində keçən görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə olunub, geniş fikir mübadiləsi aparılıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Qəbələdə V Beynəlxalq Yoqa Günü keçirilib

***Qəbələdə Beynəlxalq Yoqa Günü münasibətilə tədbir keçirilib***

***Azərbaycanda V Beynəlxalq Yoqa Gününün qeyd olunması layihəsi çərçivəsində Hindistan Respublikasının Bakıdakı Səfirliyinin təşəbbüsü və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə iyunun 15-də şəhərimizdə yoqa tədbiri keçirilib.***

"Qəbələnd" Əyləncə Mərkəzində təşkil olunan tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq 11 dekabr 2014-cü il tarixdə 21 iyunun Beynəlxalq Yoqa Günü elan olunması haqqında Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlər tərəfindən qətnamə qəbul edildiyini bildirib.



Qədim mədəniyyətə malik olan Hindistanda yüzilliklər boyunca əbədi ənənəyə çevrilən yoqa fəlsəfəsinin digər ölkələr kimi Azərbaycanda da çox məşhurlaşdığını deyən RİH-nin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Yoqa Federasiyasının prezidenti Leyla xanım Əliyevanın yoqanın təbliğinə həsr olunmuş tədbirlərə, layihələrə və ustad dərslərinin keçirilməsinə dəstək verməsini, dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunmuş "Yoqa və düşüncənin gücü" kitabının onun təşəbbüsü ilə Azərbaycan dilinə tərcümə edilməsini və həmin kitaba ön söz yazmasını ölkəmizdə multikultural dəyərlərə yanaşmanın yüksək göstəricisi kimi qiymətləndirildiyini qeyd edib.



Hər il dünyanın əksər ölkələrində keçirilən Beynəlxalq Yoqa Gününün bu gün Qəbələdə qeyd olunması münasibətilə yoqa iştirakçılarını təbrik edən RİH-nin başçısı çıxışında Azərbaycanda Yoqa Həftəsi çərçivəsində tədbirlərin Bakı, Şamaxı və Lənkəran şəhərlərində də təşkil olunacağını vurğulamışdır.

Tədbirdə iştirak edən Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vanlalvavna Bavitlunga yoqa həvəskarlarını salamlayaraq yoqanın insanın fiziki, əqli və ruhi sağlamlığını möhkəmləndirən fiziki tapşırıqların və nəfəs üsullarının vəhdətindən və hər yaşda olan insanın yerinə yetirə biləcəyi sadə hərəkətlərdən ibarət olduğunu bildirib.



Sonra yoqa sessiyasına başlanılıb. Yoqa həvəskarları qrupu müxtəlif bədən hərəkətləri ilə proqram-məşğələni yerinə yetiriblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**